TURAN-SAM * YIL: 2012 * CİLT: 4 * SAYI: 13 * KIŞ, 2012
TURAN STRATEJİK ARAŞTIRMALAR MERKEZİ DERGİSİ
www.turansam.org

(13)

# MERKEZİ ASYA'NIN TÜRK DEVLETLERİ VE AVRUPA BİRLİĞİ

**Leyla VAGIF KIZI***


## ÖZET

Avrupa Birliği'nin Asya bölgesindeki politikasında Merkezi Asya'nın türk cumhuriyetleri önemli yer almakdadır. Söz konusu ilgi bır yandan bölgenin stratejik önemi, bir başka açıdan da Avrupa Birliği'nin ekonomi siyasetiyle bağlıdır. Avrupa Birliği ile Merkezi Asya'nın türk devletleri arasında işbirliğinin üç kademesini söyleyebiliriz.

1) 1992-1995 yılları. İkitaraflı işbirliğinin başlanması, işbirliğinin önemli kısımlarının belirlenmesi olmuştur. Bu zaman kesiminde Avrupa Komisyonu Merkezi Asya devletleriyle ilişkilerde Birliği'nin Stratejik raporunu onaylamı bulunmaktadır.

2) 1996-2007 yıllarını kapsayan 2. devir 1996 şubat ayında Kazakistan, Kırgizistan ve Üzbekistan'la Birliği arasında Taraftaşlık ve İşbirliği Antlaşmasının imzalanmasıyla başlar. Bu kademede Avrupa Birliği'nin bölgeye ilgisi daha da çoğalmış, Hazar-Kafkas enerji yataklarında Avrupa ülkelerinin katılımı konusu güc kazanmıştır.

3) Üçüncü kademe 2007 senesi Haziranın 30'da Berlin'de Avrupa Birliği ve Merkezi Asya cumhuriyetlerinin beraber toplantısının yapılması ve Kurumun bölge ülkeleriyle 2007-2013 yıllarında işbirliği planının genelbildirisiyle başlar. Söz konusu plan gereğince Avrupa Birliği Merkezi Asya cumhuriyetlerine 750 milyon maliye yardımı öngörmüştür.

Adı geçen planda başlıca dikkat ekonomi sorularına, özellikle, Avrupa Birliği'nin bölgede enerji politikasına yönelmiştir. TRASECA Avrupa Birliği'nin bu bölgede başlıca tasarısıdır.



## ABSTRACT

**About the cooperation of Turkic countries of Central Asia with the European Community**

The main strukture of policy of European community with Asia forms the realitions with Turkic countries of Central Asia. This qreat interest is closely connected with the strategic imporatance of the region on one hand, on the other hand with the concrete economic policy (energy) of European community.

The coorperation between European community and the Turkic countries of Central Asia Can be distinguished into three main periods.

1) 1992-1995- years are characterized with the begining of bilateral coorperation and determination of principal priorities of collaboration. Specially in this period, Comission of Europe accepted the report on the subject the Strategy of European Union in realition with the countries of Central Asia.

2) The second period of 1997-2007-years begins with the signinq of partnership and cooperation treaty on febrary, 1996 between Kazakhstan, Kyrgyzstan, Uzbekistan and European community. In this period European Countries in Caspian – Caucasian energi field became stronger .


---

* Bakü Devlet Universitesi araştırma görevlisi; e-posta – leyla-vaqif@mail.ru . Ev adresi - Y.Vezirov, 125a, menzil 45. Telefon numarası – (99412) 465 50 48

3) The third period starts with the jointmeetinq held by the representatives of the Republiks of Central Asia and European community on june 30, 2007 in Berlin and the declaration of coorperation plan with the regional countries of the orqanization in 2007-2013.

According to this plan, European community intended to contribute 750 million euro financial aid to the republics of Central Asia.

In the above mentioned plan the main point is directed to economic problems, especially to energy policy in the region of European community. "TRASECA" is the principial project of European community in this region.

## GİRİŞ

Bu gün dünyada qloballaşma və inteqrasiya prosesləri ən yüksək mərhələsini yaşayır. Müxtəlif beynəlxalq və regional təşkilatlar və birliklərin yaranması şəklində gedən bu proseslər ilk növbədə geosiyasi və iqtisadi problemlərin həllini, birgə transmilli layihələrin həyata keçirilməsini nəzərdə tutur. Eyni zamanda sosial və siyasi əməkdaşlığı da fəaliyyət istiqaməti seçən bu beynəlxalq və regional təşkilatlar bacardıqca öz coğrafiyasını genişləndirməyə çalışır. Bu da ölkələr və təşkilatlar arasında həm ikitərəfli, həm də çoxtərəfli münasibətlərin sürətlə yaranmasını və genişlənməsini tələb edir.

Mərkəzi Asiya bu günkü müasir dünyanın strateji əhəmiyyətli bölgələrindən sayılır və ən iri dövlətlərindən tutmuş, beynəlxalq və regional təşkilatlara qədər ən müxtəlif qüvvələri özünə cəlb edir. Bu, bir tərəfdən, Mərkəzi Asiya ölkələrinin əlverişli coğrafi yerləşməsi – Hind okeanına çıxış rolu oynaması, ikinci tərəfdən isə, bölgənin nəhəng "Şərq-Qərb" kommunikasiya dəhlizinin mərkəzlərindən olması, neft və qaz yataqları ilə zəngin olması ilə bağlıdır.

Mərkəzi Asiyada 1990-cı illərin əvvəllərindən başlayan siyasi proseslər, yeni müstəqil dövlətlərin yaranması adı çəkilən qüvvələrin bölgəyə olan marağını daha da artırmışdır. Avropa Bilriyi də bu baxımdan istisna deyil və son 20 ildə bu Birliyin Mərkəzi Asiyada apardığı geniş inteqrasiya siyasəti diqqəti çəkir. Bu siyasət istər iqtisadiyyat, istər sosial əlaqələr, istərsə də mədəniyyət sahələrinə aiddir: Avropa Birliyi bu müddət ərzində Qazaxıstanda, Türkmənistanda, Qırğızıstanda digər təşkilatların nail ola bilmədiyi bir çox uğurlara nail olmuşdur. Adı çəkilən respublikaların son illərdə iştirak etdiyi ən uğurlu transmilli layihələrdə hökmən Avropa Birliyinin də adı keçir.

Avropa Birliyi ilə Mərkəzi Asiyanın yeni müstəqil dövlətlərinin əlaqələrinin qısa müddətli tarixi də göstərir ki, bütün problemli məqamlarına rəğmən bu əməkdaşlıq böyük perspektivlərə malikdir.

### Avropa Birliyinin "Şərqə Genişlənmə" Siyasəti

Bu günkü dünya təkqütblü sayılsa da, heç bir iri dövlət hələlik hegemonluq qüvvəsinə tam mənada malik deyildir. Təkbaşına geostrategiyasını həyata keçirə bilməyən dövlətlər birgə təşkilatlarda toplanaraq iri hegemonun meydana çıxmasına mane olurlar. Müasir dünyanın aparıcı siyasət və iqtisadi mərkəzlərindən biri də Avropa Birliyidir. Bu Birlik özündə bir neçə təşkilatı, o cümlədən Avropa İttifaqını ehtiva etməklə dünya strategiyasını müəyyən edən qüvvələrdən sayılır.

Keçən əsrin 50-ci illərində əsası qoyulan Avropa Birliyi ilkin məqsəd kimi Avropa qitəsi ölkələrinin iqtisadi ittifaqını nəzərdə tutsa da, 1990-cı illərin əvvəllərindən başlayaraq Birlik ölkələrinin qitədən kənar bölgələrlə işbirliyi qurması

müşahidə olunur. Hələ "Soyuq müharibə" başa çatmazdan əvvəl Avropa Birliyinin sosialist blokundan olan ölkələrlə əlaqələrinin əsası qoyulur. Birliyin rəsmi qurumları tərəfindən "Şərqə genişlənmə siyasəti" adlandırılan Proqram 1985-1986-cı illərdə başlamış, SSRİ dağıldıqdan sonra isə bu Proqram Birliyin prioritet məsələlərindən birinə çevrilmişdir.[211]

Proqram ilk olaraq Polşa və Macarıstanda gerçəkləşdirilməyə başlanır, daha sonra keçmiş SSRİ məkanına daxil olan respublikalara, o cümlədən Avropa qıtəsindən kənarda yerləşən Orta Asiya respublikalarına da şamil edilir. Proqramın mahiyyəti Avropa qitəsində yerləşən dövlətlərin inteqrasiyası ilə paralel olaraq, onların siyasi, iqtisadi və mədəni əlaqələrinin şərqə doğru genişlənməsi sayılır. Məqsəd Avropanın inteqrasiyasının birtərəfli qaydada getməsinin qarşısını almaq, Avropadan kənarda yerləşən ölkələri də qloballaşmaya və regional inteqrasiyaya cəlb etməkdir. Bu siyasətin əsas istiqamətləri milli sərhədləri nəzərə almadan konkret bir bölgədə iqtisadi, mədəni, sosial və investisiya layihələrini həyata keçirmək və bu yolla həmin bölgəni müəyyən sahə üzrə ixtisaslaşdırmaqdır.[212] Bu istiqamət çərçivəsində də Avropa Birliyi ölkələri Avropadan kənar bölgələrdə xammal ehtiyatlarını vahid sistem üzrə mənimsəmək, dünya bazarına çıxarmaq, Avropanın qabaqcıl texnologiyalarını həmin bölgələrdə tətbiq etmək, əmək ehtiyatlarından birgə istifadə etmək kimi ciddi fəaliyyət planları həyata keçirilir.

Mütəxəssislər hesab edirlər ki, Avropa Birliyinin adı çəkilən fəaliyyət proqramının əsas strateji məqsədi – hansı dövlətə məxsus olmasından asılı olmayaraq "vahid iqtisadi sərhəd və kommunikasiya sistemi ilə bir-birinə bağlanmış beynəlxalq regionlar yaratmaq", həmin regionlarda "sərhədsiz əməkdaşlıq telləri ilə bağlı olan ərazi birlikləri və ərazi hakimiyyət orqanlarının fəaliyyət göstərməsinə dəstək verməkdir".[213]

Avropa Birliyinin bu Proqramında Mərkəzi Asiya ölkələrinə, o cümlədən Mərkəzi Asiyanın türk dövlətlərinə də böyük önəm verilir.

**Qazaxıstan, Türkmənistan, Qırğızıstan və Özbəkistanın Avropa Birliyi İlə Əlaqələrinin Yaranması (1992-1995-ci illər)**

SSRİ-nin dağılması qanunauyğun olaraq yeni müstəqil respublikaların yaranması ilə nəticələndi. Qısa bir müddət sonra bu respublikalar müstəqil şəkildə beynəlxalq münasibətlərə qatılmış oldular.

Mərkəzi Asiyanın yeni yaranmış müstəqil dövlətlərinə Avropa Birliyinin marağı ilk mərhələdə ondan ibarət idi ki, bu nəhəng siyasi və iqtisadi inteqrasiya hərəkatı keçmiş sovet respublikalarında keçirilən islahatlarda "sponsor" kimi çıxış edə bilər. Eyni zamanda Avropa Birliyi bu islahatlara yardımçı olmaqla postsovet məkanında 1990-cı illərin əvvəllərində bərqərar olmuş xaosun qarşısını almaq, bu nəhəng coğrafi məkanda sabitliyə və təhlükəsizliyin təmininə nail olmaq istəyirdi.

Mərkəzi Asiyada Qazaxıstan, Türkmənistan, Qırğızıstan, Özbəkistan və Tacikistan kimi iri, amma siyasi və iqtisadi orientirləri hələ formalaşmamış yeni müstəqil dövlətlərin ortaya çıxması Avropa Birliyini xeyli ehtiyatlandırmışdı. Bu bölgədə "islam fundamentalizmi"nin və Rusiyaya meylli ideologiyanın yayılması təhlükəsi çox böyük idi. Başqa sözlə desək, Avropa Birliyinin Mərkəzi Asiyadakı

---

[211] Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, "Azərbaycan" nəşriyyatı, 2005, s.488
[212] Yenə orada, s.491
[213] Bax: yenə orada, s.492

maraqları onun "şərqə genişlənmə" siyasəti üçün təhlükə yaradan məqamları ortadan qaldırmaq, bölgə dövlətləri ilə əlaqələr qurmaq və onları Avropanın inteqrasiya proseslərinə qatmaq siyasətinə uyğun idi.

Mərkəzi Asiyanın daha bir özəlliyi burada yaranmış yeni müstəqil dövlətlərdən dördü – Qazaxıstan, Türkmənistan, Qırğızıstan və Özbəkistan türk dövlətləri idi və həmin dövlətlərin ümumi dil, din və mədəniyyət birliyi Avropa Birliyinin inteqrasiya siyasətində xeyli rahatlıq yaradırdı.

Avropa Birliyi ilə Mərkəzi Asiyanın türk respublikaları arasında indiyədək davam edən əlaqələr mütəxəssislər tərəfindən əsasən üç mərhələyə ayrılır:

1) 1992-1995-ci illəri əhatə edən mərhələ.
2) 1996-2007-ci ilin birinci yarısı.
3) 2007-ci ildən başlayan və indiyədək davam edən mərhələ.[214]

1992-1995-ci illəri əhatə edən birinci mərhələ adı çəkilən türk dövlətlərinin müstəqilliklərini elan etməsi və Avropa Birliyi ölkələri ilə birbaşa əlaqələrinin qurulması mərhələsidir. Həmin mərhələnin daha bir xüsusiyyəti – adı çəkilən tərəflər arasında qarşılıqlı əlaqələrin prioritetlərinin müəyyən edilməsi və bu əlaqələri təmin edə biləcək təşkilati işlərin qurulması olmuşdur.

Maraqlıdır ki, Mərkəzi Asiya keçmiş Sovetlər Birliyi üçün periferiya, ucqar sayılsa da, Avropa Birliyi bölgəyə bu cür yanaşmamışdır, əksinə, hər vəchlə yeni yaranmış müstəqil dövlətlərin Avropa Təhlükəsizliyi sisteminə daxil edilməsinə çalışmışdır. Bölgədəki siyasi və iqtisadi durumu diqqətlə öyrənən Avropa Komissiyası 1995-ci ildə "Avropa Birliyinin Mərkəzi Asiya dövlətlərinə münasibətdə Strategiyası" adlı hesabatını dinləmiş, bu hesabatda Avropa Birliyinin bölgədəki siyasətinin ümumi strategiyası və vəzifələri müəyyən edilmişdir.[215]

Qeyd etdiyimiz bu mərhələnin qanunauyğun nəticəsi 1996-cı ilin fevralında Qazaxıstan, Qırğızıstan və Özbəkistanla Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinin imzalanması sayıla bilər. Digər postsovet respublikaları ilə bağlanmış müqavilələrin nümunəsində olan bu Saziş ikitərəfli əlaqələrin sonrakı inkişafını və möhkəmləndirilməsini nəzərdə tutmuşdur.[216]

**Avropa Birliyinin Mərkəzi Asiya ilə Əlaqələrinin Genişlənməsi (1996-2007-ci illər)**

Avropa Birliyinin Mərkəzi Asiyanin türk dövlətləri ilə əlaqələrinin ikinci mərhələsi 1996-2007-ci ilin birinci yarısı sayılır və bu mərhələ tərəflər arasında münasibətlərin dərinləşməsi və fəallaşması ilə müşayiət olunmuşdur. İkinci mərhələnin özü də mütəxəssislər tərəfindən iki yerə ayrılır: 1) 1996-1999-cu illər və 2) 2000-2007-ci ilin birinci yarısı.

1996-1999-cu illər Avropa İttifaqının Qazaxıstan, Qırğızıstan və Özbəkistanla imzaladığı Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinin əsas müddəalarının həyata keçirilməsi ilə səciyyələnir. Bu müddət ərzində tərəflərin birgə səyi ilə Mərkəzi Asiyada təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsinə yönəldilmiş layihələr həyata keçirilmişdir.

Mərkəzi Asiyada təhlükəsizlik problemləri Avropa Birliyi üçün böyük önəm kəsb etdiyindən, 1999-cu il Avropada Əməkdaşlıq və Təhlükəsizlik Təşkilatının İstanbul sammitində yeni yüzillikdə qitənin təhlükəsizliyi ilə bağlı xüsusi Xartiya

[214] Bax: Omarov, N. Zaçem Yevrope Sentralnaya Aziya, www.ng.ru/courier/2008-06-30/17_asia.html
[215] Yenə orada
[216] Omarov, N. Zaçem Yevrope Sentralnaya Aziya, www.ng.ru/courier/2008-06-30/17_asia.html

qəbul edildi. Sənəd bu beynəlxalq təşkilatın təsisat imkanlarının coğrafiyasını genişləndirmiş oldu.[217]

2000-ci ildən etibarən başlayan mərhələ yuxarıda qeyd olunan Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinin əsas prinsiplərinin reallaşdırılması ilə səciyyələnir. Bu mərhələdə Avropa Birliyinin Mərkəzi Asiyanin türk dövlətləri ilə əməkdaşlığı genişlənir və Avropa dövlətləri özləri bu əməkdaşlıqda maraqlı olurlar. Bu da ilk növbədə 11 sentyabr 2001-ci il hadisələrindən sonra dünyada təhlükəsizlik məsələlərinin son dərəcə aktuallaşması ilə bağlı olmuşdur. Avropa Birliyi ölkələri Mərkəzi Asiyanın adı çəkilən dövlətlərində təhlükəsizlik məsələləri ilə yanaşı, iqtisadi və sosial inkişafın da yənləndirilməsinə xüsusi diqqət ayırmışlar. Əlbəttə, burada Avropa Birliyinin öz maraqları da az rol oynamamışdır: ələlxüsus Xəzər dənizinin neft-qaz yataqlarının istismarı, Xəzər-Qafqaz enerji dəhlizinin reallaşdırılması üçün Mərkəzi Asiya bölgəsindən istifadə etmək cəhdləri bu maraqlar çərçivəsinə daxildir. Təsadüfi deyil ki, 1991-ci ildən 2008-ci ilədək olan müddət ərzində Avropa Komissiyası Mərkəzi Asiyanın yeni müstəqil dövlətlərinə 1,4 milyard avro ayırmışdır.[218]

## Mərkəzi Asiyanın Avropa Birliyi ilə Əlaqələrinin Prespektivləri

Məruzənin əvvəlində qeyd etdiyimiz üçüncü mərhələ 2007-ci ilin ortalarından başlayır və indiyədək davam etməkdədir. Bu mərhələ əslində Avropa Birliyi ilə Mərkəzi Asiya ölkələri arasında Əməkdaşlığın Yeni Proqramının qəbul edildiyi (22 iyun) və rəsmi Sazişin imzalandığı (Berlin, 30 iyun 2007-ci il) tarixdən başlayır. Proqram 2013-cü ilə qədər olan müddət üçün nəzərdə tutulmuşdur. Avropa Birliyin adı çəkilən ölkələrlə ikitərəfli əlaqələrin qurulmasına təxminən 750 milyon avro dəyərində məbləğ nəzərdə tutmuşdur.[219]

Ekspertlər hesab edir ki, yeni strategiya Avropa Birliyinin yeni bərqərar olmuş geosiyasi duruma müvafiq qurulmuşdur və qurumun bir çox təsisatları vasitəsilə bölgədə həm ənənəvi təsisatların inkişafını, həm də innovasiyaları həyata keçirməyi nəzərdə tutur. Bu müddət ərzində dövlət idarəçiliyi, sərmayə qoyuluşu, ticarət sahəsində siyasətin liberallaşması sahələrində effektli nəticələr əldə olunmuşdur.

Adı çəkilən Yeni Proqramın daha bir özəlliyi ondan ibarətdir ki, o, bölgənin hər bir ölkəsini ayrı-ayrılıqda layihələrə adaptasiya etməyi nəzərdə tutmuşdur, bu da həmin dövlətlərin müxtəlif sosial-iqtisadi durumu ilə əlaqədardır.

Bu mərhələdə Avropa Birliyini müxtəlif təsisatlarının nümayəndələrinin bölgəyə rəsmi səfərləri baş tutmuşdur. Məsələn, Avropa Parlamentinin Mərkəzi Asiya ölkələri üzrə məruzəçisi Cem Özdəmir 2007-ci ilin oktyabrından başlayaraq bölgə ilə tanışlıq aparmış, Astanada və Bişkekdə olmuşdur. Rəsmi görüşlər sayəsində Qazaxıstanın və Qırğızıstanın aparıcı nazirlikləri, həmçinin, mətbuat nümayəndələri ilə danışıqlar aparılmışdır. Bu görüşlər zamanı Cem Özdəmir Avropa Birliyinin Mərkəzi Asiyanın türk dövlətlərinə münasibətdə prioritetləri dəqiqliklə göstərilmişdir.[220]

Qeyd edək ki, bu müddəalar 2007-ci ilin noyabrında keçirilmiş "Mərkəzi Asiya və Avropa: XXI yüzilliyin yeni iqtisadi əməkdaşlığı" adlı konfransda da

---

[217] Axundova, L. İnisiativa ES obyedinyayet stranı yevro-aziatskoqo kontinenta, İzvestiya Akademii Nauk Azerbaydjana, 1999, 2, s.149
[218] Omarov, N. Zaçem Yevrope Sentralnaya Aziya, www.ng.ru/courier/2008-06-30/17_asia.html
[219] http://www.arba.ru/news/2369
[220] Omarov, N. Zaçem Yevrope Sentralnaya Aziya, www.ng.ru/courier/2008-06-30/17_asia.html

səslənmişdir. Konfrans Almaniya Xarici İşlər Nazirliyi və BMT Avropa İqtisadi Komissiyası tərəfindən təşkil edilmişdi və bu yığıncaqda Mərkəzi Asiyanın türk dövlətlərinin 150-dək nümayəndəsi iştirak etmişdir. Bu konfrans əslində Avropa Birliyinin Mərkəzi Asiya bölgədində əməkdaşlığının ilk mərhələsinin yekunu və perspektivlərinin özülünü qoymuş oldu.[221]

2008-ci ilin fevralında Avropa Parlamenti Mərkəzi Asiya ölkələri üzrə Avropa Birliyinin strategiyasının hesabatını təqdim etmişdir. Hesabat bölgədə Avropa Birliyinin uğurlarının xüsus qeyd etmişdir və eyni zamanda Özbəkistanda və Türkmənistanda demokratiyanın daha sürətlə inkişafı üçün ciddi tədbirlər həyata keçirilməsini də xüsusi vurğulamışdır. Bundan əlavə, Avropa Parlamenti bölgənin dünya iqtisadi inteqrasiyasına daha geniş şəkildə cəlb edilməsi üçün də tədbirlər planının hazırlanmasını tövsiyə etdi.

Hesabatın qanunauyğun nəticəsi olaraq 2008-ci ilin aprelində Aşqabadda Avropa İttifaqının və Mərkəzi Asiya respublikalarının xarici işlər nazirlərinin görüşü keçirildi. Görüş gedişində tərəflər iqtisadiyyat, enerji, ticarət, ətraf mühit, humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün konkret addımlar atılmasına qərar vermiş oldular.[222]

## SONUÇ

Məruzədə nəzərdən keçirdiyimiz qısa icmal da göstərir ki, Avropa Birliyi və Mərkəzi Asiyanın türk respublikaları arasında sıx əlaqələr artıq son onilliyin gerçəyinə çevrilmişdir. Avropa Birliyinin ümumi strategiyası fonunda bu əlaqələrin gələcəl perspektivləri haqqında aşağıdakıları söyləmək olar:

İlk mərhələdə (1990-cı illərin ortalarına qədər olan dönəmdə) Avropa Birliyinin Mərkəzi Asiyanın yeni müstəqil dövlətləri ilə bağlı strategiyası xeyli deklarativ xarakter daşımışdır. Bu səbəbdən də Avropa Birliyinin müxtəlif təsisatları tərəfindən bölgədə həyata keçirilən tədbirlər obyektiv imkanlara söykənməmişdir. Bu baxımmdan Avropa Komissiyasının Mərkəzi Asiya ölkələrində insan haqqları və qanunun aliliyi ilə bağlı bəyanatları qeyd oluna bilər. Bu dəyərlərin çox böyk əhəmiyyət kəsb etməsi şübhəsizdir, lakin Avropa Birliyi adı çəkilən respublikaların uzun müddət sovet totalitarziminin təsiri altında olması faktına xüsusi diqqət yetirməlidr.

Digər təəssüf doğuran məqam – Avropa Birliyinin Yeni Strategiyasında Özbəkistanın yer almamasıdır, halbuki bu respublika bölgənin aparıcı dövlətlərindəndir. Özbəkistanın adı çəkilən Proqramda iştirak etməməsi nəinki bu respublikanın sosial-iqtisadi və siyasi inkişafına neqativ təsir edəcək bir haldır, eyni zamanda bölgənin də ümumi təhlükəsizlik məsələləri üçün müsbət hal sayıla bilməz. Ən azından Mərkəzi Asiya deyilən vahid iqtisadi və siyasi vəhdətin yaranması üçün bölgənin bütün dövlətlərinin, o cümlədən, Özbəkistanın birgə layihələrdə iştirakı zəruridir.

Bu sadaladıqlarımız fonunda Avropa Birliyinin Mərkəzi Asiyada gedən ciddi geostrateji oyunlarda mövqeyini itirməsi təhlükəsi də var. Belə ki, bölgə uğrunda ABŞ, Rusiya və Çin kimi iri qüvvələrin mübarizə apardığı bir dönəmdə Avropa Birliyinin strategiyası çox ləng təsir bağışlayır və sadaladığımız dövlətlərin xeyli aqressiv səciyyəli planları və fəaliyyəti qarşısında dözümsüz görünür. Elə Avropa

---

[221] Yenə orada
[222] Yenə orada

Birliyinin himayə etdiyi Nabucco TransXəzər qaz nəqli layihəsinin gerçəkləşməməsi buna nümunə ola bilər.

Düşünürəm ki, həm Mərkəzi Asiya respublikalarının özləri üçün, həm bölgədə maraqları olan Avropa Birliyi üçün əlaqələrin perspektivli olması təkcə geostrateji rəqabətdən deyil, hər iki tərəfin bu əlaqələri genişləndirmək üçün edəcəyi cəhdlərindən də asılıdır.

## QAYNAQLAR

1. ABİŞEV, A., Kaspiy: neft i politika, Almatı: Sentr vneşney politiki i analiza, 2002
2. AXUNDOVA, L. İnisiativa ES obyedinyayet stranı yevro-aziatskoqo kontinenta, İzvestiya Akademii Nauk Azerbaydjana, 1999, 2, s.149-156
3. HƏSƏNOV, Ə.M., Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti, Bakı, “Azərbaycan” nəşriyyatı, 2005
4. OMAROV, N. Zaçem Yevrope Sentralnaya Aziya, www.ng.ru/courier/2008-06-30/17_asia.html (Erişim tarihi: 30.06.2008)
5. QUSEVA, L., “Sovremennoye sostoyaniye nefteqazovovo kompleksa i eksportnıx marşrutov qaza Respubliki Turkmenistan”, journal “Analitik”, Almatı, 2001, 2, s.36-39
6. ZVEREV, A., “Dlya SŞA seyças oçen vajno umenşit svoyu zavisimost ot blijnevostoçnoy nefti”, www.aina.kz (Erişim tarihi: 27.11.2001)
7. http://www.arba.ru/news/2369 (Erişim tarihi: 2.07.2007)